GİRİŞ

Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası - Milli Kurrikulumu (bundan sonra Milli Kurrikulum) konseptual xarakterli çərçivə sənədi olub ümumi təhsil üzrə təlim nəticələrini və məzmun standartlarını, ümumi təhsilin hər bir pilləsində nəzərdə tutulan fənləri, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nailiyyətlərinin qiymətləndirilməsi və monitorinqi üzrə əsas prinsipləri, fənn kurrikulumlarının strukturunu əhatə edir.

Milli Kurrikulum ictimai-siyasi, mədəni və sosial həyatın qloballaşdığı və universallaşdığı, informasiya-kommunikasiya texnologiyalarının rolunun artdığı, rəqabətin gücləndiyi müasir dövrdə hər bir şəxsin istedad və qabiliyyətinin müstəsna əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq, müstəqil qərarlar qəbul etməsi üçün onun zəruri təhsil səviyyəsinə və bacarıqlara malik olmasına, cəmiyyətin inkişafının əsas hərəkətverici qüvvəsi olan insanın formalaşdırılmasına və problemlərin həllinə yönəlmişdir.

Milli Kurrikulum bilavasitə aşağıdakı funksiyaların reallaşdırılmasına xidmət edir:

ümumi təhsilin pillələri, bu pillələrdə tədris olunan fənlər arasında əlaqələrin və ardıcıllığın təmin edilməsi;

fənlərin məzmununun cəmiyyətin tələbatına uyğun daim təkmilləşdirilməsi və yeniləşdirilməsi;

təlim texnologiyalarının çevikliyi və interaktivliyinin təmin olunması;

nəticəyönümlü fənn kurrikulumlarının hazırlanıb tətbiq olunması;

təlim mühitinin, təhsil fəaliyyətinin səmərəliliyinin, təlimin inkişafetdirici və qabaqlayıcı xarakterinin, bilik, bacarıq və vərdişlərin təhsil pillələri üzrə konsentrik prinsip əsasında müəyyənləşdirilməsinin təmin olunması;

şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsi və stimullaşdırılmasının təmin edilməsi.

Milli Kurrikulum aşağıdakı ümumi prinsiplərə istinad olunmaqla hazırlanmışdır:

milli və ümumbəşəri dəyərlərin nəzərə alınması;

ümumi inkişafı, meyil və maraqları nəzərə alınmaqla bütün şagirdlərə əlverişli təlim şəraitinin yaradılması;

tələbyönümlülük;

nəticəyönümlülük;

şagirdyönümlülük.;

inteqrativlik.

MÜNDƏRİCAT

I. ÜMUMİ TƏHSİLƏ VƏ ÜMUMİ TƏHSİLLİ ŞƏXSƏ VERİLƏN TƏLƏBLƏR

II. ÜMUMİ TƏHSİLİN MƏZMUN STANDARTLARI

III. ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ FƏNLƏR ÜZRƏ HƏFTƏLİK DƏRS SAATLARININ MİQDARI

IV. ÜMUMİ TƏHSİL SİSTEMİNDƏ PEDAQOJİ PROSESİN TƏŞKİLİ PRİNSİPLƏRİ

V. ÜMUMİ TƏHSİL SİSTEMİNDƏ ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

VI. FƏNN KURRİKULUMLARININ STRUKTURU